MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaTop®-582 Seal

(köhnə adı MSeal 582)

Sement və Akril Tərkibli Su İzolyasiya Qarışığı

## TƏSVİR

SikaTop®-582 Seal, iki komponentli, sement və akril tərkibli, beton səthlərin müsbət və mənfi yönlü su nüfuzuna qarşı istifadə olunan izolyasiyası qarışığıdır.

## İSTİFADƏ YERLƏRİ

- Daxili və xarici məkanlarda, üfüqi və şaquli tətbiqlərdə
- Sanitar qovşaqların izolyasiyasında
- İstinad divarlarında
- Su anbarlarında
- Tunellər və lift çuxurlarında
- Dəmir gücləndirməli beton borularda qoruyucu örtük olaraq
- Betonun su, karbonatlaşma və buz əridici duzlara qarşı qorunmasında

## ÜSTÜNLÜKLƏRİ

- Yüksək dayanıqlılıq
- Kapilyar təsirli qoruyucu
- Uzun işlənmə müddətli
- Büzülməz və çatlamaz
- Su buxarı keçirən
- Yüksək yapışma müqavimətli
- Asan hazırlama və tətbiq
- Donma-ərimə dövrələrinə dayanıqlılıq
- Fırça və püskürtmə tətbiqə uyğunluğu
- İçməli su ilə təmas uyğunluğu

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq Sertifikatı

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | A-Maye komponenti: Kopolimer akrilik dispersiya<br>B-Toz komponenti: Polimer modifikasiyalı əlavələr, xüsusi sement və mineral dolğular |
| **Qablaşdırma** | A Komponenti: 2 kg Plastik bidon<br>B Komponenti: 25 kg Torba<br>(A+B) : 27 kg set |
| **Görünüş və rəng** | A komponenti : Bəyaz, maye<br>B komponenti :boz, toz |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Açılmamış, zədələnməmiş, bağlı qablaşdırmada, quru və sərin yerdə saxlanmalıdır. Maye qablaşdırma şaxtadan qorunmalıdır. |

# TƏTBİQ MƏLUMATI

| | | | | |
|---|---|---|---|---|
| **Qarışdırma nisbəti** | **SikaTop®-582 Seal** | **A Komponenti** | **B Komponenti** | **Qarışdırma Suyu** |
| | Qablaşdırma | 2 kg | 25 kg | 5.00-5.50 kg |
| | **Qarışımın Sıxlığı** | | **~1,98 kg/liter** | |
| **Sərfiyyat** | ilk qat: 1.30 kg/m² (Qarışım)<br>İkinci qat: 1.20 kg/m² (Qarışım)<br>3-cü qat: 1.20 kg/m² (Qarışım) | | | |
| **Məhsul temperaturu** | Min. +5 °C / Maks. +25 °C | | | |
| **Ətraf mühit temperaturu** | Min. +5 °C / Maks. 35 °C | | | |
| **Səthin temperaturu** | Min. +5°C / Maks. +25°C | | | |
| **İstifadə müddəti** | ~45 dəqiqə | | | |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## İSTİFADƏ MƏHDUDİYYƏTLƏRİ

- Əgər temperatur +5°C-dən aşağı və ya +35°C-dən yuxarıdırsa, müvafiq mühit və səth temperaturun gözlənilməsi lazımdır. Çox isti, yağışlı və ya küləkli havalarda tətbiq edilməməlidir.
- SikaTop®-582 Seal +23°C temperaturda tətbiq edildikdə, 2 gün sonra mexaniki dayanıqlılıq qazanır, 7 gün sonra su keçirməz olur və 14 gün sonra tam dayanıqlılıq əldə edir.
- Açıq hava tətbiqləri zamanı, yeni tətbiq olunmuş qat ilk 24 saat ərzində günəş, külək, şaxta və ya yağışdan qorunmalıdır.
- Sement və akril əsaslı sistemlərin işləmə və bərkimə müddəti ətraf mühitin, səthin temperaturu, həmçinin nisbi hava rütubətinə bağlıdır.
- Aşağı temperatur kimyəvi reaksiyanı yavaşladır və işləmə, örtmə vaxtını artırır. Özlülüyün artması səbəbindən istifadə miqdarı azalır.
- Yüksək temperatur kimyəvi reaksiyanı sürətləndirir və yuxarıda qeyd olunan vaxtlar bu səbəbdən azalır.
- Materialın tam bərkiməsi üçün ətraf mühit və səthin temperaturu icazə verilən minimum dəyərdən aşağı düşməməlidir.
- Yaş təbəqə qalınlığı tək qat üçün 1.30 mm-dən çox olmamalıdır.
- Üzərində gəziləcək səthlər SikaScreed® və ya SikaLatex®/SikaPaver®-125 əlavə olunmuş qarışımlarla örtülməlidir. Plitə yapışdırma işləri üçün SikaCeram® yapışdırıcıları tövsiyə olunur.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

Qısa müddətli saxlanma zamanı maksimum 3 palet bir-birinin üzərinə yığıla bilər və çatdırılma "ilk daxil olan, ilk çıxarılır" prinsipinə uyğun olmalıdır. Uzun müddətli saxlanma zamanı paletlər bir-birinin üzərinə yığılmamalıdır.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTH HAZIRLIĞI

Tətbiq səthi quru, təmiz, müqavimətli, hamar və incə məsaməli olmalı, boşluqlar, çatlar, çıxıntılar, toz, qatran, yağ, köhnə boya və digər yapışmanı azaldıcı qalıqlardan azad olmalıdır. Taxta və ya dəmir çıxıntılar səthdən çıxarılmalı və aktiv su sızmaları Sika Monoplug® / SikaTop®-591 Seal ilə dayandırılmalıdır. Boşluqlar və çökəkliklər Sika Monoplug®/ SikaTop®-591 Seal və ya uyğun Sika MonoTop® məhsulu ilə doldurulmalıdır. Şaquli və üfüqi künclər min. 4 sm radiusunda ovallaşdırılmalıdır. Tətbiqdən əvvəl səth nəmləndirilməlidir. Əgər örtük tez bir zamanda suyunu itirirsə, bu, əsas səthin kifayət qədər nəmləndirilmədiyini göstərir. İsti və küləkli mühitlərdə tətbiq zamanı yalnız ilk qat üçün qarışdırma suyunun miqdarı tövsiyə olunan qarışdırma suyu nisbətinə görə 10% artırıla bilər.

### QARIŞDIRMA

Maye A komponentini və tövsiyə olunan miqdarda suyu təmiz qarışdırma qabına tökün və qarışdırıcı (400–600 rpm sürətində) ilə qarışdıraraq toz B komponentini yavaş-yavaş əlavə edin. Yekcins və vahid qarışıq əldə olunana qədər ən azı 3–5 dəqiqə qarışdırmağa davam edin. 3–5 dəqiqə gözləyin və təxminən 30 saniyə yenidən qarışdırın – bundan sonra istifadə üçün hazırdır.

### TƏTBİQ

Hazırlanmış SikaTop®-582 Seal qarışığı izolyasiya fırçası və ya mala ilə iki və ya üç qat şəklində tətbiq olunur. Hər qatdakı fırça tətbiq istiqaməti bir-birinə perpendikulyar olmalıdır. Qatlar arasındakı gözləmə müddəti ətraf mühit şəraitindən asılı olaraq dəyişir.

### AVADANLIQ TƏMİZLİYİ

Tətbiqdən sonra bütün alətlər və avadanlıqlar su ilə təmizlənməlidir. SikaTop®-582 Seal bərkidikdən sonra səthdən yalnız mexaniki üsulla çıxarıla bilər.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12